Xalq qəzeti.- 2021.- 30 dekabr.- S. 7

# Qarşıda bizi quruculuq zəfəri gözləyir

**Xalqın xarakteri Vətənə, dövlətə sədaqət əsasında formalaşır. Təbii ki, bu formalaşma tarixi şəxsiyyətlərin dühası, Vətən təəssübü, dövlətçilik sevgisi ilə gerçəkləşir və bu, ölkənin dünyəvi proseslərə inteqrasiyasına təkan verir.**

Müasir Azərbaycanın dövlətçilik memarı olan böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılıq ideologiyasını dünyəvi, bəşəri ideologiya ilə yaşatmağın metodologiyasını yaratdı. Müstəqillik dövründə bu metodologiya Azərbaycan dövlətçiliyinin və Azərbaycan dövlətinin beynəlxalq miqyasda tanınma simvolu olub.

Dünya azərbaycanlılarının birinci qurultayında ulu öndər demişdi: “Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyni əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

Bolşevik Rusiyası Azərbaycan Demokratik Respublikasını ilhaq etmişdi. Ancaq xalqın dövlətçilik amalını, mübarizə əzmini ilhaq etməyə qüdrəti çatmadı. Xalq on illərlə gizlin-aşkar dövlətçiliyinin bərpası üçün mübarizə apardı. Xalqın mübarizə əzmi 1989-cu ilin sonlarında SSRİ – İran sərhədində, Naxçıvanda, İranın Azərbaycanla sərhəddində tikanlı məftilləri dağıtdı. Bu əzmin qarşısını nə SSRİ ala bilərdi, nə də İran.

Bu hadisə dünya ictimaiyyətinə bir gerçəkliyi xatırlatdı: Azərbaycan xalqı dövlətçiliyini bərpa etməkdə israrlıdır və buna nail olacaq.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev bu hadisəni azərbaycançılığın kükrəyişi kimi dəyərləndirdi və bu həmrəyliyin dünyəvi xarakter alması üçün 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması haqqında qərar qəbul edildi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul etdi.

2001-ci il noyabrın 9-10-da Dünya azərbaycanlılarının I qurultayı keçirildi (19 il sonra bu tarixin müqəddəsliyini dünya Azərbaycanlıları daha gözəl bir ovqatla – Zəfər Günü ilə yaşadı). Qurultayda dünyanın 36 ölkəsində yaşayan azərbaycanlıları təmsil edən 200-dən çox təşkilatdan 406 nümayəndə iştirak etdi. Bu qurultayda Azərbaycanın, azərbaycanlıların daha nurlu sabahları üçün illərə ömür qüdrəti verənlər ən böyük azərbaycanlının – tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə dəyərli tövsiyələrini dinlədilər. Nümayəndələr dünyəvi siyasətdə azərbaycançılığın yerinin möhkəmləndirilməsi üçün nələr etməyin, necə etməyin nəzəri əsaslarını da öyrəndilər.

Dünya azərbaycanlılarının I qurultayının keçirilməsinin həm Azərbaycan üçün, həm də bütün dünya azərbaycanlıları üçün çox əhəmiyyətli olduğunu qeyd edən ulu öndər dedi: “Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların hər biri yaşadığı ölkədə həyatını özü istədiyi kimi qurub yaşayır. Yaşadığı ölkənin vətəndaşıdır, onun qanun-qaydaları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir. Ancaq, eyni zamanda, indi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir”.

Ulu öndərin “Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik” fikri qurultayın leytmotivi kimi dinlənilmişdi.

Qurultayda qətnamə, nümayəndələrin bütün dünya azərbaycanlılarına müraciəti ilə bir sırada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciətlər də qəbul olundu. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etməyən Ermənistana ciddi beynəlxalq təzyiq göstərməyən dünya ölkələri bu müraciəti Azərbaycan Ordusunun həll edəcəyini bilmədi idi. 19 il sonra dünya dövlətləri gördü ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qürurla dediyi “Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var” xəbərdarlığı nə qədər real imiş!

Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan dövlətçiliyinin daha da möhtəşəmləşməsində Heydər Əliyev dühasının bəşəriliyinə düşən işıq oldu.

Ümummilli liderimiz 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna



baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir". Bu kəlamlar Azərbaycanın bu günündə deyilib, gələcəyi üçün deyilib. Bu kəlamları ən böyük azərbaycanlı deyib, "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" – bunu müdrik tarixi şəxsiyyət deyib. Ona görə Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər bir azərbaycanlı üçün bu səviyyədə doğmadır, əzizdir. "Mən azərbaycanlıyam!" deyən hər bir şəxs bu günün mahiyyətini yaşam fəlsəfəsi bilir, ömrünü bu fəlsəfənin işığında yaşayır.

2020-ci ilin dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəylik Günündə bütün azərbaycanlıları təbrik edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dedi: “Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm”. Bu minnətdarlıq 44 gün davam edən Vətən müharibəsində qazanılan zəfərin 44 gün sonra deyilib. Müqəddəsliyə müqəddəs münasibət kimi. Bu müqəddəs münasibət həmrəylik gününün ovqatını müqəddəsliklə tamamlamışdı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyirdi: "Harada olursa-olsun azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda, Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir". Bu fikirlər həm azərbaycançılığın ideoloji əsaslarını müəyyənləşdirirdi, həm də Dünya Azərbaycanlılarının Həmrəylik Gününün mahiyyətini. Xalqımız 20 ildi belə kəlamların bəşəri dərkinin cazibəsində yaşayır, azərbaycançılıq üçün yaşayır, Azərbaycan dövlətçiliyi üçün yaşayır, Azərbaycan üçün yaşayır. Belə yaşadılan azərbaycançılığı Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə işğala son qoydu.

İndi işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri aparılır. Dünya azərbaycanlıları bu prosesin də uğurla başa çatacağına əmindir.

Mən bütün soydaşlarımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə təbrik edirəm. Əminəm ki, yaxın illərin bu günündə xalqımızı Vətən müharibəsində qazanılan zəfərin davamı olan quruculuq zəfəri münasibəti ilə təbrik edəcəyik.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***